«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 31 dekabr (Çərşənbə axşamı günü) tarixli 75-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 27 rəbiüləvvəl sənə 1337.
31 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## MÜSƏLMAN TƏLƏBƏLƏRİNƏ

Bu günlərdə müsəlman tələbələrindən bir neçəsi mənə müraciətlə tələbələrin orduya cəlbi barəsində izahat istəmişlərdir. Bu barədə ümuma elan olunur ki, Əxzi-əsgər Qanunna-məsinin [Hərbi çağırış Qanununun], tələbələri əsgərlikdən azad edən və təcil [təxir] edən maddəsi hökumət qərardadına görə ləğv edilmişdir. Tələbələr də sair müsəlman vətəndaşları ilə müsavi [eyni, bərabər] əsgəri xidmətlə müvəzzəfdirlər [hərbi xidmət keçməyə borcludurlar]. Deməli sair vətəndaşları əsgərlikdən azad edən qanunlar – məsələn 60 sinli [yaşlı] ixtiyar atanın yeganə oğlu olmaq, ailə pərəstarı olmaq [ailəsinə baxmaq] və sair ümum [bütün] Azərbaycan vətəndaşlarına aid maddələr bunlara da şamildir. Hökumət dairə və müəssisələrində xidmət edənlərdən Əxzi-əsgər Qanunnaməsi mövcibincə [əsasında] yalnız nazirlər və nazir müavinləri əsgərlikdən azaddırlar. Qanunda göstərilən maddələrə məbni [əsasən], əsgəriyyə müvvəzəf olanları heç bir məmuriyyət əsgərlikdən azad edəmməz. Bunu nəzərdə tutmalıdır ki, yeni elan olunan qanun, müsəlman tələbələrini yalnız ümum vətəndaşlarla əsgərlik vəzifəsində müsavi edir. Əsgərlikdən boyun qaçıran tələbələr də sair adamlar kimi qanun qarşısında məsuldurlar.

Bu, məsələnin rəsmi tərəfidir. Fəqət yeni istiqlal bayrağı qaldırmış Azərbaycanın tələbələrini, vətənimizi müdafiə edəcək ordunun birinci şərəfli və namuslu zabitləri olmağa dəvət etməyi vətəndaşlıq vəzifəsi ədd [hesab] edirəm.

"Vətən qəyur [qeyrətli; çalışqan] gənclərin omuzunda yüksəlir" həqiqətini unutmayınız. Cümhuriyyətimizin ən möhkəm, ən mətin sütunları gənc və münəvvər fikirli təbəqəmizin çiyinləridir. Bu gün siz sinənizi vətənimizə sipər ediniz. Ona dəmir pəncəli, sarsılmayan imanlı və səbatlı [mətin] bir ordu yaradınız. Yarınkı [sabahkı] səadətimiz təmin olunsun. Gələcək yalnız sizin olduğu üçün onun uğrunda hər bir məşəqqətə qatlaşmaq da sizin öhdənizədir. İndi vətənimiz üçün bir müdafiə ordusu törətməyə borclu olduğunuz kimi, bu fövqəladə böhranlı zamanlar keçib qurtardıqdan sonra ona bir fikir, mədəniyyət, tərəqqi və ürfan ordusunu da siz təşkil edəcəksiniz. Əsgərlikdən boyun qaçıran bir azərbaycanlı tələbəni mən təsəvvür etmək istəmirəm.

Nəuzübillah [Allah eləməsin], böylə bir hal olarsa, ən yaxın gələcəkdə inhitata [süquta] uğrayıb xəritədən silinəcəyimizi sübut edir ki, o vaxt həm tarixi-bəşəriyyət [bəşəriyyətin tarixi] və həm vicdani-millət [millətin vicdanı] qarşısında məsuliyyət, əhalimizin münəvvər fikirlilərinin öhdəsinə düşər.

Tələbələrimizi vəzifə başına, vətən müdafiəsinə dəvət edirəm. Tələbələr Maarif Nəzarəti idarəsinə rücu [müraciət] edərək məktəbi-hərbiyyəyə [hərbi məktəbə] girmək üçün adlarını qeyd etdirməlidirlər.

*Maarif naziri:*
*Yusifbəyli Nəsib bəy*

Nazir həzrətlərinin bu bəyannaməsi aşağıda dərc edilən ərzihala [ərizəyə] cavabdır.

### Tələbələrin orduya dəvəti münasibətilə

Maarif nazirinin 22 dekabrdakı elanı ilə tələbələri Gəncə Hərbiyyə məktəbinə qeyd olunmaya dəvət etməsi münasibətilə bir dəstə müsəlman tələbələri tərəfindən Nəzarətə [Nazirliyə] zeyldəki [aşağıdakı] ərzihal verilmişdir:

*"Biz, bir neçə müsəlman tələbəsi, sizin dəftərxanaya müraciətən [müraciət edərək], işbu elanın bəzi yerlərinin şərhini xahiş etdik. Sizin elanınızı tələbələr Nəzarət tərəfindən könüllü olaraq Məktəbi-hərbiyyəyə daxil olmaq təklifi kimi tələqqi edərək [qiymətləndirərək], icbari olmadığını düşünürlər. Bundan maəda [başqa] tələbələrin və edadi məktəbləri itmam edənlərin [bitirənlərin] əksəri Maarif, Ədliyyə nəzarətlərində və sair müəssisələrdə xidmətdə bulunurlar. Arxadaşlarımızla xüsusi məhəbbətlər [səmimi söhbətlər] əsnasında onlardan hökumət müəssisələrində çalışanlar kəndilərini hərbi qulluqdan azad, qalanlar isə bu elanı könüllü olaraq Məktəbi-hərbiyyəyə daxil olmaq təklifi anlamış olduqlarını duyduq.*

*Bu barədə Hərbiyyə və Maarif nəzarətlərinin rəyini bilmək üçün cənab Maarif naziri hüzuruna müraciətən, mətbuat vasitəsilə bu məsələnin aydınlaşdırılması[nı] rica ediriz. Əvvəla, bu elan hamı üçün qanuni bir tələbdirmi? Saniyən [ikincisi], hökumət müəssisələrində xidmət edənlər[i] əsgərlikdən azad edirmi? Və əgər edirsə, hansı vəzifələr[i] azad edir?*

*Maarif Nəzarətinin bu yolda çalışmasına səmimi-qəlbdən müvəffəqiyyətlər diləyir və bu məsələnin aydınlaşdırılması ilə ən yaxın zamanda gənc ordumuzun səfləri [sıraları] böyük əhəmiyyəti haiz olan [əhəmiyyət daşıyan] münəvvər [aydın, ziyalı] fikirli ünsürlərlə doldurulacağına ümid ediriz.*

*Vəkillər: Yusif Axundov, Mirəbdüləziz Seyidov, Ələkbər bəy Topçubaşov"*

## MƏŞİXƏT [ŞEYXÜLİSLAMLIQ] MƏSƏLƏSİ

Zaqafqaz Şeyxülislamı axund Molla Məhəmməd Pişnamazzadə cənabları istefa verdi. Bu cənabın şeyxülislamlığa təyini vaxtlar[ın]da Zaqafqaz müsəlmanları bir çox ərizələr verib şeyxülislamın camaat seçkisi ilə dəvət olunmasını iddia etdilərsə də, Hökumət tərəfindən qəbul olunmadı. Zira sabiq rus hökuməti şeyxülislamlara və müftilərə yalnız şapka və mundir [rəsmi geyim, forma] geydirməyirdisə də, yenə mütləq onları adi çinovniklər kimi vəzifədar etmişdi [vəzifə sahibi etmişdi, vəzifəyə qoymuşdu]. Hələ sabiq şüyxülislamlardan Mirzə Həsən Tahirov vəfat edər-etməz yeni şeyxülislama Qafqazı dolaşıb qəzavətxanələri [qazılıqları, qazılıq idarələrini] və sair ruhani və mövqufat [vəqflər, vəqf olunmuş mülklər] idarələrini təftiş etmək işi qadağan olunur. 1906-cı ildə zalım general Qoloşapov Qarabağ müsəlmanlarını topa tutduğu halda ruhani rəisləri şeyxülislam və müfti həzrətlərinə müraciətən imdad istənildi. Rəislərimiz sabiq canişin Vorontsov-Daşkov hüzuruna vardılar da, qəbul olunmadılar. Şikayətlərini ancaq dəftərxana məmurlarına edə bildilər. Təsəlliyab [təsəlli verici] bir cavab da alammadılar. Bunun müqabilində erməni baş ruhani rəisi katolikos Tiflisə varid olarkən [gedərkən] canişin tərəfindən istiqbal olunub [qarşılanıb], müqəddəs əllər öpülə-öpülə kamali-təntənə ilə saraya qəbul olunurdu!!

Xülasə, şeyxülislamlıq və müftilik icadı, müsəlman dinini müdafiə üçün deyil, bəlkə bu idarələr vasitəsi ilə missioner işlərini yeritmək idi. Bunu məşhur İlminski heç də gizlətməyib, əsərlərində aşkarca yazır. Məsələn, bu cənab bir yerdə deyir:

*"Müfti vəzifəsini daşıyan şəxs öylə bir müsəlman olsun ki, rusca qonuşarkən dili dolaşsın, xəcalətdən qızarsın, imlasında yüzlərcə səhv və xətaları olsun, qubernatoru və bəlkə onun alçaq məmurlarını gördükdə lərzəyə düşsün."* (Письма Ильменскаго [İlminskinin məktubları], стр. [səh.] 177)

Hangi əsnafdan [təbəqədən] müfti seçmək məsələsinə gəldikdə, o cənab böylə yazır:

*"Məqami-zərurətdə [zərurət halında] mütəəssib (fanatik) və rusca savadı olmayan bir tatar, mədəniləşmiş tatardan bizə əlverişlidir. Bundan qorxulusu aristokrat və bundan da dəhşətlisi darülfünun [universitet] təhsili görmüşlərdir."* (там же [yenə orada], стр. 174-5)

Bəs rus hökuməti əli ilə qurulmuş idareyi-ruhaniyyələr müsəlman din və etiqadını mühafizə üçün deyil, bəlkə avamlıqda yaşayan bir millət üçün üstüörtülü bir duzaqdır [tələdir]. Ey kaş, bu idarələr əvvəlindən heç olmayaydı!

Dünənə kimi Tiflisdə iki idarə yaradılmışdı. Hərəsinə məxsus birər məktəbləri var idi. Məktəbin birisində "Ömər təriqəti [yolu]" və o birisində "Əli təriqəti" yazılmışdı.

Bu bölgülər, bu idarələr onsuz da təfriqəpəsənd [ikitirəlik sevən, pərakəndəlik sevən] müsəlmanların arasında təfriqəni [ikitirəliyi], nifaqı daha artıq şiddətləndirmək üçündü. Odur ki, Tiflisdə və Qafqazın bir çox cəhətində [yerində] müsəlman bayramları iki günə təsadüf edirdi. Birinci günü "Ömər təriqətçiləri" və o birinci [digər] günü də "Əli təriqətçiləri" bayram saxlardılar. Bazdidə [birini görməyə, bayram ziyarətinə] gedən xaricilər də çaşıb bilməzdilər ki, hangi günü icrayi-mərasim [mərasimi icra] etsinlər.

Hətta mövludi-Nəbi bayramını illərcə Bakıda bir partiya rəbiüləvvəlin 12-sində saxladığı halda, o biri partiya həman ayın 17-də saxlardı. Daha bundan gülünc bir hal yoxdur ki, bir milləti-vahidə [vahid bir millət] peyğəmbərinin anadan olduğu günü haqqında da ixtilaf sala! Lakin həmdlər [şükürlər] olsun ki, bu il hamı partiyalar ayın 12-si bayram saxladılar. Bu özü sübut edir ki, ixtilaflı məsələlər müruri-zaman ilə [zaman keçdikcə] millət arasından axundsuz və əfəndisiz götürüləcəkdir. Lakin axundlar və əfəndilər də bir qədər səy və guşiş [cəhd] edərlərsə, bu ixtilaflar daha sürətlə zail [yox] olub gedər.

İndiyədək bir çox dini və siyasi məhrumiyyətlə yaşamış Azərbaycan türkləri bu gün haqqi-intixaba [seçmə haqqına] malik olaraq istədikləri şəxsi intixab və dəvət edə bilərlər. Hətta bu vəzifəni aralıqdan tamamən qaldırmağa da qadirdirlər. Lakin ümuri-diniyyəni [din işlərini], zənnimcə, bu gün şəxsiyyətə həvalə etməyə daha ehtiyac qalmadı: şeyxülislama, müftiyə yox, bəlkə müntəxəb [seçilmiş] dörd nəfər əzadan [üzvdən] mürəkkəb bir cəmiyyətə, bir idareyi-müştərəkəyə [ortaq bir idarəyə] tapşırmalıdır ki, əzadan ikisi əhli-təsənni [sünni məzhəbindən] və ikisi də cəfərilərdən olmalıdır. Rus hökumətinin təqviyəyə [gücləndirməyə] çalışdığı Ömər və Əli idarə və məktəblərini qapayıb, dini-islamın əsasını müdafiə və ixtilafları aradan götürməyə yarar bircə, yalnız bircə idarəyə ehtiyac vardır. Cavan Azərbaycanın Ədyan Nəzarəti [Dini Etiqad Nazirliyi] qarşısında iştə mühüm bir məsələ!

*Fərhad Ağazadə*

**İdarədən:** Möhtərəm Fərhad bəyin biz dəxi şərik olduğumuz arzusuna təvafüq edən [uyğun düşən] və Ədyan Nəzarəti tərəfindən idarəmizə varid olan [gəlib çatan] bu xəbəri dərc edib, məşixət məsələsində Nəzarətlə mütəfəkkirlərimizin yekdil və yekməslək [bir fikirdə] olmalarını kamali-xoşnudi ilə [böyük bir məmnuniyyətlə] ixtar ediriz [bildiririk].

## ƏDYAN VƏ MƏZAHİB NƏZARƏTİNİN FƏALİYYƏTİ XÜSUSUNDA

Azərbaycan Cümhuriyyəsi əhalisinin ruhani işləri büsbütün Ədyan Nəzarətinə aid olaraq, onun tərəfindən təmin və idarə olunur.

Azərbaycan Cümhuriyyəsinin istiqlaliyyəti övzanın [vəziyyətin] pərişan və vəlvələdar bir vaxtında elam [elan] edildiyi hər kəsin xatirindədir. Hər kəs bilir və anlayır ki, o zaman nəinki məmləkətimizin, bəlkə kəndi diriliyimizin də xilas olmasına ümidimiz yox. Binaənileyh [ona görə], hökumətimiz işbu ümidsizliyi bilmərrə [əsla] kəndisinə yaxın buraxmayaraq, hüquq və istiqlaliyyətimizə endirilən hər bir zərbə və təcavüzə qarşı tədbirlər ittixaz etməklə [tədbirlər görməklə] illərdən bəri arzusunda bulunduğumuz məqsəd və amalımıza nail olmaq üçün çalışmış və səy etmişdir. Bu müşkülat və mümaniətlər [maneələr] arasında Ədyan Nəzarəti dəxi vaxt tapıb mümkün qədər kəndi vəzifəsini ifa etmişdir. Əlbət ki, məzkur [deyilən] səbəblər olmasaydı, Nəzarətin fəaliyyəti daha müvəffəqiyyətli, daha parlaq olardı.

Ədyan Nəzarəti hələ fəaliyyətinin ibtidasında [başlanğıcında] ruhani qüvvəmizi birləşdirmək istəmişdir. Buna binaən [buna görə], bu vaxta kimi Tiflisdə mövcud idarələri ləğv edərək, onların əvəzində 6 alimdən ibarət bir "Məşixət dairəsi" adlı şər'i bir idarə [şəriət idarəsi] təşkil etmişdir. Bu isə millət uğrunda böyük və unudulmaz bir xidmətdir.

Nəzarətin ikinci fəaliyyəti gələcək ruhanilərimizə aiddir. Bu xüsusda Nəzarət tərəfindən tərtib və Hökumət tərəfindən qəbul və təsdiq edilmiş layihədə göstərilir ki, bu vaxtacan ruhanilərimizin tərbiyə və təhsilinə lazım dərəcədə fikir verilməmişdir. Halbuki, bu ən mühüm bir məsələdir. Ona binaən, Ədyan Nəzarəti əlan [indi] Gəncədə mövcud "Mədrəseyi-Ruhaniyyə"nin məramnaməsini genişləndirib və oraya ən qabil alimlərdən müdərrislər [müəllimlər] təyin etməyi dəxi təhti-qərara almışdır. Nəzarətin fikrincə, "Mədrəseyi-Ruhaniyyə"də şəriət elmindən başqa ədəbiyyat və siyasətə dair elmlər dəxi oxunacaqdır.

Bədəhu [sonra] Nəzarət, ruhanilərimizin məişətini nəzəri-etibara alaraq, Azərbaycan Cümhuriyyəsi daxilində bulunan prixod və ruhanilərin hesabını bilmək üçün binagüzarlıqda bulunmuşdur [rəsmi yazışmalara başlamışdır]. Bu binagüzarlığın cavabı toplanan kimi molla və axundlara müəyyən mahiyə [aylıq, maaş] təyin ediləcəkdir.

Xarici məzhəbi-ruhani işlərinə keçdikdə, Nəzarət bu məsələdə bitərəf qalaraq onların daxili işlərinə müdaxilə etməyəcəkdir. Bu xüsusda Nəzarət onlarla fəqət [yalnız] zahiri əlaqə və münasibatda bulunacağını qət etmişdir [qərara almışdır].

## QƏZETƏLƏRDƏN

**Şura hökuməti əleyhinə üsyan**

"Pravda" qəzetəsi xəbər verir ki, ağır günlər keçirməkdəyiz. Daxildə olan "ağqvardiyalılar" təhdidi, xarici təhdidə qarışmaqdadır. Kaluqa və Tver quberniyalarının bir çox uyezdləri iğtişaş və üsyan içrədir. Əsgərliyə dəvət edilən kəndlilərdən 7 min nəfəri üsyan qaldırıb, Şura üzvlərindən bir çoxunu həbs və qalanlarını iş başından kənar etmişlərdir. Kaluqa Qırmızı ordusu etibarsızlıq göstərmişdir. Moskvadan əsgəri dəstələr göndərilməsi lazım gəlmişdir. Bir para uyezdlərdə üsyan yatırılıb, bəzilərində davam etməkdədir.

**Şura səfirinin axtarılması**

Helsinqforsdan rəsmi surətdə xəbər verirlər ki, Bolşevik Hökumətinin Stokholmda olan səfiri Vorovski Petroqrada getdiyi əsnada axtarılmışdır. Bir çox mühüm sənədlər tapılmışdır. Bu sənədlər, bolşeviklərin bütün cahan inqilabı qaldırması üçün ciddi tədbirlərdə bulunmalarını isbat edir.

**Paris müşavirəsində**

Odessadan xəbər verirlər ki, Paris müşavirəsində iştirak etməkdən ötrü Rusiyanın sabiq Müvəqqət Hökumət Baş vəziri [Baş naziri] knyaz Lvov və Amerikada olan sabiq rus səfiri Baxmetyev Nyu Yorkdan Avropaya azim olmuşlardır [yola düşmüşlər].

**Ukrayna Cümhuriyyəti**

Odessa qəzetələrində komendat Lutsenkonun imzası ilə böylə bir müraciətnamə dərc edilmişdir:

*"Böyük mübarizədən sonra Ukrayna əhalisi getman boyunduruğundan xilas olub, Ukraynanı cümhuriyyət elan etmişdir. Ukrayna Xalq Cümhuriyyətinin Direktoriyası bütün əhalinin mənafeyini mühafizə və müdafiə etməyə qalxmışdır. Ukrayna Cümhuriyyəti kəndliyə yer, fəhləyə insanca həyat, hər bir vətəndaşa hürriyyət vermişdir. Bundan belə, heç bir başsızlıq və təcavüz olmamalıdır. Lakin cümhuriyyəti möhkəmləndirməkdən ötrü hamının işləməsi lazımdır. Hamının işləməsindən ötrü də nizam və asayiş gərəkdir."*

Krımdan gələnlər xəbər verirlər ki, orada olan şayiata [şayiələrə] görə Müttəfiqlər, Ukrayna üsyanına bais olan Petlyuranı silahını yerə qoymadığı zaman qanundan kənar elan etmək niyyətindədirlər.

**Yaponiyanın tələbatı**

Vaşinqton məhafili-siyasiyyəsindən [siyasi dairələrindən] xəbər verirlər ki, Yaponiya heyəti Sülh Konfransında bu aşağıdakı tələbatda bulunacaqdır:

1 - İngiltərə-Yaponiya İttifaqı münasibətilə dənizlərin azad olması və qeyri ümumi məsələlər haqqında İngiltərə ilə müttəfiq olmaq lazımdır;

2 - Xırda millətlərin müdafiəsi və dünyanı gələcək müharibələrdən xilas etmək üçün Amerikanın fikrinə şərik olmalı;

3 - Yaponiyanı müdafiə etmək qəsdi ilə Sibiryada asayiş bərpasının Yaponiyaya vagüzar edilməsi [tapşırılması] lazımdır;

4 - Çində Yaponiyanın ticarət, maliyyə və sənaət [sənaye] məntəqeyi-nüfuzunun [nüfuz sahələrinin] qanuni tələqqi [qəbul] edilməsi lazımdır;

5 - Yaponiya ilə Çindən ötrü əlverişli bir şərait üzrə Kiao-Çaonun müvəqqət zəbt edilməsi;

6 - Marşall, Karolin alman cəzirələri [adaları] və Bəhri-mühitdə [Sakit okeanda] olan başqa cəzirələr Yaponiyanın haqqi-himayəsi altında olmalıdırlar;

7 - Yaponiyalıların bütün dünyada əsasi-mütəqabilə ilə [qarşılıqlılıq prinsipi üzrə] müsavati-hüququ [hüquq bərabərliyi].

**Yassı konfransı və Müttəfiqlər**

"O. N." qəzetəsinin mühərriri Yassıda olan konfrans nəticəsini belə xəbər verir: Bu yaxınlarda Səlanikdə iki Fransa əsgəri firqəsi [hərbi diviziyası] nəqliyyat gəmiləri ilə Odessaya gətirilib, oradan da cənuba göndəriləcəklərdir. Bundan ötrü də Odessada və İstanbulda hazırlıqlar başlanmışdır. Buralarda əsgər göndərmək üçün nəqliyyat gəmiləri də vardır. Bu əsgərlər ardınca başqa əsgərlər də göndəriləcəkdir. Eyni zamanda Rumıniya tərəfindən Jmerinka və Kiyev tərəfə fransız əsgərləri göndəriləcəkdir. Bu qərar üzrə asayiş bərpa edilməsi iki tərəfdən başlanılacaqdır. Bolşeviklər əleyhinə olan məsələ hələ hazırlanmaqdadır. Şərq cəbhəsində ancaq ingilis əsgərləri olacaqdır. Bolşeviklər əleyhinə birinci iqdamat [təşəbbüs, addım] başlanmışdır. Belə ki, Könüllü ordu ehtiyacatı üçün Novorossiysk şəhərinə texnika mayehtacı [ləvazimatı] və əsgər çıxarılmalıdır.

## MƏTBUAT

**Rusiyada Müttəfiqlər nə yapacaqlardır?**

Müttəfiqlərin Rusiyaya nicat verməyə borclu olduqlarını elam etmələri [bildirmələri] və Cahan müharibəsini bitirər-bitirməz Rusiyaya əsgər və ləvazimati-hərbiyyə ilə kömək göndərərək feilən [əməli surətdə] işə başlamaları, Rusiyanın hər firqə və sinfinə bir cür ümid verir və hər kəs Müttəfiqlərdən öz arzusuna əməl edilməsini gözləyir. Bəziləri gözləyirlər ki, Müttəfiqlər Rusiyada ancaq bolşevizmlə mübarizə edib, yerdə qalan məsələləri camaatın öz xahişinə müvafiq həll edəcəklər. Bir çoxları deyirlər ki, heç Müttəfiqlər başqa məsələlərə qarışmayacaqlar; digərləri "Qoşma Xalq Cümhuriyyəti" [Federativ Xalq Respublikası] quracaqlarını gözləyir. Xırda millətlər, şübhəsiz ki, öz hüquqlarının müdafiə ediləcəyinə ümid bağlayırlar. Xülasə, Müttəfiqlərin müdaxiləsinə hərə öz nöqteyi-nəzərindən baxıb, ona müvafiq də fəaliyyət və nəticə umurlar.

Əzcümlə [o cümlədən] general Krasnov[un] nimrəsmisi [yarırəsmisi] olan "Çasovoy" qəzetəsi təzədən Rusiyada padşah idarəsi təsis etmələrini və Rusiya taxtına yenidən bir padşah tikmələrini tələblə yazır ki:

*"Etilaf [Antanta] dövlətləri Rusiyanı məhv və müttəfiqlik iltizamına [öhdəliyinə] xəyanət edən inqilabçılarla deyil, iltizamnamələrə düzlüklə və namuskaranə bir surətdə əməl edən Çar Hökuməti ilə ittifaq bağlamışlardır.*

*Nə qədər ki Rusiyada padşah vardı, sözü də möhkəm və sarsılmaz idi. Cümhuriyyətlər vücuda gəlincə, xəyanətlər başlandı.*

*Məgərsə cürbəcür cümhuriyyətçilər böylə güman edirlər ki, Müttəfiqlər gəlib az qala bizim kimi özlərini də tələf edən inqilabımıza nicat verəcəklərdir?*

Məgərsə Etilaf dövlətləri mütəqabil [qarşılıqlı] kömək və müzahirət [yardım] yollu iltizamnaməyə əməl olunmasını tələb edən namuskarlıq borcuna xəyanət edəcəklərdir?

*Və məgərsə bu dövlətlər, ancaq inqilabçıların xahişinə inanacaqlar, amma hər yerdə əksəriyyətlə çar hökumətinin təzədən təcdidinə [bərpasına] həris olan camaatın sözünə, xahişinə inanmayacaqlardır. Camaat, çar hökumətini istəyir, çünki ağıllı və sadiq babalarımız min illərlə nə yığmışdılarsa, çar hökumətindən sonra bir il yarımda itirdi?"*

Doğrudur, Müttəfiqlər Rusiyaya bir kömək borcludurlar. Amma, bizcə, Müttəfiqlər hər təməssük [veksel] çıxarana borclu deyildirlər, bilxassə ki, təməssük çıxarmaq üçün bir qədər haqq və ədalət dəxi lazımdır.

## DAĞISTANLILAR CÜMHURİYYƏTİNDƏ

Parlaman əvəzi vəzifəsini ifa edən Müttəfiq Şura (sabiq Dağıstanlılar Şurası) Kotsevə yeni kabinə təşkil etməyi təklif etmişdir. Yeni kabinəyə işbu zəvat [şəxslər] daxil olur:

Kotsev - Rəisi-vükəla [Baş nazir]; Daxiliyyə naziri - Rəşid xan Qaplanov; Xariciyyə naziri - Heydər Bammatov; Hərbiyyə naziri - Nuhbəy Tarkovski; Türüq və Məabir [Nəqliyyat və Rabitə], Post və Teleqraf - İbrahim bəy Heydərov; Ticarət və Sənaye - Bahadır bəy Mallaçıxan. Kabinədə iki yer də kazaklara verilmişdir. Kazaklar[la] bolşeviklər ilə mübarizədən ötrü etilaf hüsula gəlmişdir [razılaşma əldə edilmişdir].

* Sabiq Rəisi-vükəla [Baş nazir] Əbdülməcid Çermoyev həzrətləri Avropa Sülh Konfransına gedəcək heyətin başında duracaqdır.

* Bolşeviklər ilə mübarizə müvəffəqiyyətli surətdə davam etməkdədir. Xasavyurtun işğalı, Petrovskun təhlükə altında olması şayiatı [şayiələri] təkzib edilir. Hal-hazırda bolşeviklər Sulakın arasındadırlar. Dağıstanlılar buraya gəlmiş kazaklarla bahəm [birgə] bolşeviklərə cavab verirlər.

* Axır vaxtlar Petrovskda xəbər alınmışdır ki, kabardinlərin qəhrəmananə təərrüzləri [qəhrəmanca hücumları] altında bolşeviklər davam gətirməyib, Mineralnı Sular dəvairini [dairəsini] təxliyə etmişlər.

* Qaçqınların dediyinə görə, bolşeviklər sülhcu [mülki] əhali ilə fəna bir halda müamilədə bulunurlar [pis rəftar edirlər]. Bir aula gəldikdə, ən əvvəl əhalini tərksilah edirlər. Sonra məşhur camaat xadimlərini [ictimai xadimləri] gülləbaran edirlər.

* Kazaklarla müsavi [bərabər] surətdə ərazini təqsim etmək [bölüşdürmək] üçün etilaf əmələ gəlmişdir. Bir çox məsələlərdən ötrü hakəm [arbitr] ixtiyar ediləcəkdir [seçiləcək; təyin ediləcək].

* Alınan məlumata görə, Denikin ordusu, bolşevik ordusunu yarmışdır.

* Dağıstanlılar Cümhuriyyətinin Hərbiyyə naziri, ordu təşkilinə mübaşirət etmişdir [başlamışdır].

## MÜLAHİZAT

Rus dilində nəşr edilən "Azərbaycan"ın bu keçən nömrələrinin birində, dördüncü səhifədə bir kiçikcə elan oxudum. Bu elan məni bir çox zaman fikirləndirdi və hətta bir az da qüssələndirdi.

Elan özü-özlüyündə hər gündə qəzetələrdə yüzlərcə dərc edilən elanların birisi idi. Lakin elanın yarısı belə düşmüş ikən, mənim kimi bir malxulyaçı [melanxolik] qəzetəçinin nəzərini və fikrini bilatəəmmül [düşünmədən; fərqində olmadan] gərək özünə cəlb edəydi. O elanda, ən başda bir qalın və qara xətlə "musulmanin" [müsəlman] kəlməsi yazılıb. Sonra həman müsəlman bunu elan edirdi ki, "Mən, buxalterlik, onun müavinliyini və o da olmasa neft mədənlərində, dəyirmanda və nəqliyyatla məşğul olan idarələrdə münasib bir vəzifə axtarıram!" Və bu sözlərdən sonra da elan yazan öz adresini göstərmişdi.

İştə elanın məzmunu bu!..

Adi və səthi nəzərlə bu elana baxılarsa, mən də etiraf edirəm ki, burada adam fikirləndirən və yaxud qüssələndirən bir mətləb yoxdur və hətta bu mətləbi götürüb qəzetədə yazmağın da heç bir mənası yoxdur.

Amma iş burasındadır ki, mən bir tərəfdən, yuxarıda dediyim kimi, malxulyaçı qəzetəçi olduğum üçün və o biri tərəfdən də yazılarda, qəzetələrdə iri və qalın xətlə yazılmış "musulmanin" sözünü gördükdə "summün bükmün fəhüm la yə'qilun" kimi dura bilməməyim üçün bu elana da adi və səthi nəzərlə baxa bilmədim.

Səbəbini məndən sual edirsiniz?..

İştə buyurunuz!

Zamanı ki, Qafqaziya millətləri bir yerə yığılıb qərar qoydular ki, Rusiyanın başqa hissələri kimi bizlər də gərək başqa millətlər kimi hürriyyət paylarımızı alaq və hər kəs öz vətənində azadə yaşasın; o vaxt hamıdan qabaq Qafqaziyada Gürcüstan Cümhuriyyəti təşkil edilib, Tiflis şəhərini Gürcüstan paytaxtı elan edib, gürcülər də azadə bir vətənin azadə övladları olaraq öz dərdlərinə, əyər-əskiklərinə fikir verməyə başladılar.

Ən əvvəl nə etdilər və hangi vasitə ilə öz dərdlərinə çarə etməyə başladılar?..

Gürcülər hamısından qabaq Gürcüstan Cümhuriyyətini gürcüləşdirdilər, yəni milliləşdirdilər. Dövləti idarələrdən, məktəblərdən, qəzetələrdən, ədəbiyyatdan, ictimaiyyatdan başlayıb hətta baqqal və qəssab dükanlarının üstündə yazılmış lövhələrə kimi milliləşdirdilər. Gürcüstan Cümhuriyyəti Hökuməti əvvəl mərhələdə bütün Tiflisdə yaşayan rus çinovniklərinə, qulluqçularına rücu [müraciət] edib, ədəbli surətdə üzr istəyib dedi ki, çün bizim idarələr bundan sonra dövləti dildə (yəni gürcü dilində) yaşayacaqlar, ona görə də hər kəs ki, Tiflisdən köçmək xahiş etsə, onun yolu açıqdır və özünə yol xərci xəzinədən veriləcək...

O idi ki, hər kəs də öz vəzifəsini bildi.

Gürcüstandan sonra da Ararat yəni Ermənistan Hökuməti təşkil edildi.

O da bu ayaqdan!..

Axırda bizim Azərbaycanımız araya çıxdı. Həm hürriyyətin mənayiəslisi müfadınca [həqiqi mənasına uyğun olaraq] və həm də çiyin-çiyinə duran qonşuların tutduqları yol və göstərdikləri misal hökmüncə gərək Azərbaycan Hökuməti də ən əvvəl milliləşmədən başlayaydı.

Lakin iş belə olmadı.

Birdən-birə gürcülər, ermənilər, polyaklar, ukraynalılar və sairləri deyən sözləri azərbaycanlılar demədilər və ona görə də milliləşmək və milliləşdirtmək sözlərini hələ indiyə kimi heç bir Azərbaycan türkü ağzı dolusu ağzına alıb danışmayıb.

Azərbaycan Cümhuriyyətində milliləşmək ancaq bəzi dükanların lövhələrində türkcəni ruscanın üstündən yazmaqdan ibarət olubdur.

Hətta iş bir haldadır ki, hələ indi də Azərbaycan paytaxtında çox az bir idarə taparsan ki, Azərbaycan müsəlmanı mütərcimsiz oraya daxil olub öz işini görə bilsin.

Bunu hər bir gözü açıq və insaflı bir Azərbaycan rəiyyəti görür ki, bizim hökumətimiz tamam yerdə qalan xırda və iri cümhuriyyətlərin ümdə qanun və qaydalarına rəğmən "milliləşmək" məsələsinə bu günə kimi bir o qədər etina etməyibdir.

Bu siyasətin, bu sayaq tərzi-idarənin yaxşı-yamanlığı barəsində mən bir söz demirəm. Mən ancaq bu mətləbi açmaq istəyirəm ki, bəs necə olur ki, bizim baş hökumətimiz və yaxud Azərbaycan türkləri öz vətənlərində "milliləşmək" politikasını işlətmədikləri halda, bizim paytaxtımızda yaşayan qeyri-türk camaatı hərə öz nüfuzuna görə "milliləşmək" siyasətini işlədir və hətta bu yolda çox artıq da ciddiyyət göstərirlər.

Bakıda bir para idarələr var ki, bu "milliləşmək" işinə öylə aludə olublar ki, hətta örf, adət deyil bəlkə də həyasızlıq dərəcəsinə çatıblar.

Rusca "Azərbaycan"da dörd-beş sənətdə mahir olduğunu və ciddiyyətlə özünə bir qulluq axtardığını elan edən qara və iri xətlə yazılmış "musulmanin" həmin bu mətləbə görə də məni fikirləndiribdir. Məsələni bir az da açmaq istəyirəm.

Bakıda bir neçə idarələr var ki, onlar nə hökumət və nə də xüsusi bir müəyyən sahibkara mütəəlliqdirlər [bağlıdırlar; ondan asılıdırlar]. O idarələr ancaq camaat malı və camaatın öz istədikləri və öz əlləri ilə təşkil edilmiş idarələrdirlər.

Nümunə üçün "Sentrodom", "Kooperatsiya", ərzaq idarələri, miskin və qaçqınlara baxan idarələri göstərə bilərəm. Bu kimi idarələri camaat özü təşkil edib və camaat tərəfindən də seçilmiş adamların təhti-idarəsinə buraxıblar və həm də bütün məxaric və məsarifat [xərclər] dəxi həman camaatın pulu ilə verilir. Bəs böylə olan surətdə həm örf, həm insaf və həm də qanun nöqteyi-nəzərlərindən gərək bu idarələrdə nə firqəbazlıq, nə məsləkdaşlıq, nə milliləşdirmək və nə də şəxsi nöqteyi-nəzərlərə meydan verilməsin.

Neyçün?

Ona görə ki, camaat işinə gərək ancaq camaat nöqteyi-nəzəri ilə baxılsın. Necə ki, camaat həm kasıbdan, dövlətlidən, avamdan, alimdən mürəkkəb [ibarət] olan bir cəmiyyətə deyirlər və həmçinin də camaatı ayrı-ayrı millətə, məsləkə və siyasi firqəyə bölmək qeyritəbiidir. Böylə isə, o vaxt gərək camaat adı ilə və camaat qüvvəsi ilə icra edilən işlər də ancaq camaat mənafeyi, fikri ilə araya çıxsın.

Bu axırkı nəzəriyyə qəbul edilərsə, mən əlaniyə [açıqca] və aşkar deyirəm ki, "Kooperatsiya" ilə "Sentrodom" idarələri başında duranlar bu ümumi nəzəriyyəyə müğayir [zidd] iş görürlər.

Bu idarələrin müdirləri bu camaatın işlərində camaatın hamı üzvlərinə müsavi [bərabər] nəzərlə baxmayırlar.

Yəqin ki, məndən sübut istəyəcəklər...

İştə bu da sübut!

"Kooperatsiya" ilə "Sentrodom"un idarələrinin hər birində lap azına 40-50 nəfər məvacib alan qulluqçu vardır. Hərgah desəm ki, bu qulluqçuların yüzdə doxsan doqquz prosenti qeyri-müsəlman olub ancaq bircəsi müsəlmandır, yəqinimdir ki, səhv etməyirəm.

"Kooperatsiya" idarəsi çox böyük və bəzəkli bir zalda yerləşmişdir. Zalın bir başında durub o biri başına fikir verəndə burada cərgə ilə oturan böyük-kiçik, arvad-kişidən ibarət olan qulluqçulardan bircə nəfəri və ya ki ikicəsi müsəlmandır.

Gəl indi "Sentrodom"a.

"Sentrodom" idarəsi böyük bir zalda deyilsə də, 8-9 xırdaca otaqlarda yerləşmişdir. Bəndeyi-həqirzəlil [aciz və zəlil bəndə] bu otaqları da gəzmişəm. Doğrusu budur ki, burada "diş qurdalamağa" belə müsəlman görməmişəm.

Böylə olan surətdə bunu soruşmaq istəyirəm ki, necə olur ki, hər yerdə ərzaq işlərinə baxan idarələrdə qulluqçuların hamısı təkcə xaricilər olurlar? Bu məsələ iki mətləbin birisindən xali deyildir. Birinci budur ki, "Kooperatsiya" və ya ki "Sentrodom" idarələrinin başında duran adamlar öz idarələrində milliyyət siyasətini işlətməyə maildirlər. İkincisi də bu ki, bu idarələrin işləri böylə bir haldadır ki, orada kənar bir "göz" olmaq heç vaxt iş başında olanların sərfəsi deyil.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 31 dekabr (Çərşənbə axşamı günü) tarixli 75-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Hərgah belə olmasaydı, rusca "Azərbaycan"da elan verən "musulmanin" çox-çoxdan özünə bir qulluq tapıb çörəkpulu qazana bilərdi.

*Məhəmməd Sadiq*

## AZƏRBAYCAN PAYTAXTI

### IV

Səfəviyyədən sonra bu tərəflərdə təvaifi-müluk [kiçik dövlətlər, xanlıqlar] əmələ gəlib, Azərbaycan vilayətləri birər müstəqil və nim-müstəqil [yarımüstəqil] xanlıqlar halında yaşarkən, Bakı dəxi uzun bir zaman xanlıq halında yaşamışdır.

Bakının o zamanlarda nə kimi bir həyatla yaşadığını məşhur türk səyyahından öyrənə biləriz. 1057 səneyi-hicriyyəsində Bakıya gəlmiş Osmanlı səyyahi-şəhiri [məşhur səyyahı] Övliya Çələbi həzrətləri, Bakı qalasını bər-vəchiati [aşağıdakı kimi] tərif edir:

"Bakı qalası Şirvan əyalətində olub Əcəm (İran) sərhədidir. Burada bir ziyafət edilib, təamdan sonra Ərzurum valisi Məhəmməd paşa əfəndimizin naməsini, inci (mirvarid) təsbehlə, məvvac [dalğalı] ipəkli firəng xaraların[ı], şəmşiri-hədayanı [hədiyyə qılıncı] xana verdim. Səfasından: "Xeyir-müqəddəm [qədəminiz xeyirli olsun], xoş qədəm gətirdiniz" deyə dilnəvazlıqlar etdi [ürək açan sözlər dedi]. Təbriz və Naxçıvan xanlarının namələrini də verdim. "Surunuz [toyunuz] mübarək ola" deyə çox sənaxanlıq eylədim [tərif dedim].[1] Zatən namələrdə də həqiri xeyli tövsif [vəsf] etmişlər. Rəvan xanı[2] həqiri kəndi həmşirəsi [bacısı] sarayına mehmanlığa verdi. On gün, on gecə zövqü-səfalar etdik. Xan isə [inci təsbehi] göstərmədik xan və sultan[3] qoymadı.

O gün həqirə bir qat əcəmanə [əcəm tərzində] əlbisə, on tümən bəxşişi-şahanə [hökmdar bəxşişi] ehsan olundu. Rəfiqlərimizlə şəhəri təmaşaya başladıq.

Bakı qalası, Mosko [Moskva] kralına qarşı Dara şah tərəfindən bəhri-Xəzər sahilində bir püşteyi-ali [yüksək bir təpə] üzərində mürəbbeülşəkl [dördkünc, kvadrat] olaraq bina edilmiş bir qalayı-rənadır [gözəl qaladır]. İç qalasının qərbə nazir [baxan] bir qapısı vardır - hədidi-Naxçıvanidəndir.[4] Mühiti [əhatəsi] 700 addımdır. 70 qüllə, 600 bədəndir. Divarının qəddi [boyu, hündürlüyü] 100 zirai-məkkidir [Məkkə arşınıdır]. Qaya üzərində olduğundan xəndəyi yoxdur. Qala içərisində torpaq örtülü yetmiş qədər əski ev vardır. "Heydərşah camesi" adı ilə bir də came varsa da, minarəsizdir. Xan (karvansara), hamam və sairədən nişan yox. Lakin dərya kənarındakı ribat[5] [şəhərətrafı bağları], böyük karvansarası, min qədər evli, bağ və bağçalı, came, xan [karvansara] və hamamlı, çarşı [üstüörtülü və ya üstüaçıq bazar yeri] və bazarlı bir şəhəri-məmurdur [abad bir şəhərdir] ki, üç tərəfi sur [hasar] ilə mühafizəli olub, üç qapısı vardır. Şimala açılan Gilan qapısı, cənuba Babüləbvab qapısı, qərbə dərya kənarında Liman qapısıdır. Buradan yeddi ədəd böyük minarə görünməkdə idi. Üç hamamı varsa da, Mirzəxan hamamı qayət xoşdur. Çarşı və bazarı o qədər müzəyyən [bəzəkli] deyildir. Lakin Mosko sərhədi olduğundan şahsevən, dizçökən əsgərləri vardır.

Şirvan əyalətində başqaca xanlıqdır. 3000 əsgər və 12 hakimi (uyezd naçalniki) vardır. Başqaca qazısı və yeddi nahiyəsi vardır. Bir qaç kərə Mosko kazakı qarşı İdil nəhrindən şaykalarla gəlib Gilanı və Bakı nahiyələrini nəhbü-qarət [talan və qarət] etmişdir. Çünki qarşı tərəfi 300 mildə Mosko diyarıdır. Hətta bu qalanı Özdəmirzadə fəth etmiş, içində osmanlılardan Qubad paşa hakim ikən Əcəmin (İranın) təşviqi ilə Mosko kazakı qəlib Bakı qalasını mühasirə etmişsə də, onlarla bərabər əcəmlər də dəndani-tiğdən [qılıncın dişlərindən] keçirilmişdir. Hələ kəmikləri sahili-bəhrdə [dəniz kənarında] bir püşteyi-ali [hündür təpə] üzərində durur.

Şəhərin havası səhlcədir [yumuşaqdır]. Çünki qəzalarında pirinc [düyü], kətan, yağ, bostan hasil olur. Amma suyu neft yağı qoxar. Şəhər qürbündə [yaxınlığında] 7 yerdə neft mədənləri vardır ki, hər biri bir lövndür [rəngdir]: sarı, qırmızı, qara, ilaxır... Nahiyələrindən Müskür, Səndan, Reynəb nəvahisi [nahiyələrinin] əhalisi şəm'i-əsəl [bal mumu], şəmi-ruğən [yağ mumu] yaxmayıb, həp qara neft yağı çıraqda yaxarlar.

Xalqı qayət təndürüst [sağlam bədənli] və tənpərvərdir [canına qulluq edəndir]. Olduqca dilbəri [çox gözəlləri] də vardır. Şəhəri on səkkizinci iqlimi-ərzi [yer iqlimi] hüdudundadır. Əhalisi əksəriyyən sünnidir.

Bu qala ilə Dəmirqala arası, dərya kənarından dörd mənzildir. Aralarında Müskür nahiyəsinin kəndləri məmurdur [abaddır]. Əhalisi köçəbə türkmanlardır. Obaları ilə qonub-köçərlər.

Şaburan [Şabran] şəhəri Bakının şərqində və üç mənzil məsafədədir. Şamaxı şəhəri də şərqində olub beş mənzildir. Gilan da şimalındadır. Bakı Şamaxının bəndəri-iskələsidir [körpü limanıdır]. Çin və Xitay ilə Xütəndən, Fağfur eli ilə Zənan şəhərlərindən, Qalmax (Kalmık) və Mosko diyarlarından daima elçilər və karbanlar məta [ticarət malı] gətirirlər. Moskolar daima Bakıya gəlib Bakıdan tuz (duz) neft, zəfəran, ipək (hərir) alıb Moskoya götürürlər. Mosko (Moskva) elçiləri gəlib rəhn (girov) dururlar. Mosko diyarından samur, balıq dişi, sincab əksəriyyən İrana Bakıdan çıxarılır. Bir qismi də Gilandan çıxar.

Bakı nahiyələrində bəzi şurə [şoran; ot bitməyən] yerlər vardır. Adam və ya at ayağını basıb bir az dursa ayaqları yanar. Karvan xalqı bəzi yerləri həfr edərək (qazıyaraq) təncərə (qazança) qoyur, təamları zəminin hərarəti ilə bir anda bişər. Əcib hikməti-xudadır [Allahın əcaib bir hikmətidir].

Bəzən Mosko kazakı kənarı sazlı [qamışlı] gəmilərlə Kür nəhri ilə gəlib Bakı ətrafını nəhbü-qarət edirlər. Buradan aldıqları əsirləri Gilan bazarına aparıb orada satırlar. Nəhrin eni Tuna qədər varsa da, dərinliyi o qədər deyildir."

Övliya Çələbi bu təfsilatı verdikdən sonra səyahətinin xatiməsini [sonunu] təsvir üçün yazır ki:

"Bir yandan şəhərə tamaşa etdiyimiz kimi, digər tərəfdən əcəm surlarının (ziyafətlərinin) zövqü-səfalarına qoyulduq [daldıq]. Suri-zifafı [toy şənliyini] təhrir eyləsək [yazsaq], böyük kitab olar. Rəvan xan[ı] Tağı Əli xan ilə Bakı xanı Əşrəf xandan səmuri-əcəmanələr [əcəm tərzində xəzlər], gürcülər, tavus dəvələr ehsan aldıq. Rəvan xan dəxi gömrüyə min baş karban göndərməyi təəhhüd [vəd] edərək, paşa əfəndimizə bir səmur kürk, 10 cift [cüt] Gilan yayı, altı gürcü qulamı [qulu; köləsi], 10 cift balıq dişi, 3 ənbər şamama hədaya verdi.

Ayrıca məhəbbətnamələr də təhrir eylədi [səmimi hisslərini ifadə edən məktublar da yazdı]. Həqirə dəxi 10 tümən bəsi xərci-rah [xeyli yol xərci], təvabelərimizə [tabeliyimizdəki adamlara] 10 tümən abbasi ehsan eylədi. Cümlə Bakı əyanı ilə vidalaşaraq qiblə tərəfə rəvan olduq [yola düşdük]."

Övliya Çələbi Bakının neftindən də təfsilat verir. Onun "Səyahətnamə"sinə görə:

"Neft yağı mədənləri yerdən qaynayaraq çıxır. Kiçik göllər[də] neft yağı suların üzərində qaymaq bağlar. Neft başqaca [xüsusi, ayrıca] əmanət [idarə, dövlət qurumu] olub sənəvi [ildə] şaha 7000 tümən aqça gətirir. Neft əmininin [neft idarəsi rəhbərinin] adamları bu gölcəyizlərin içinə girib gecələri nefti yığaraq keçi tuluqlarına doldururlar. Sonra bunu tüccar [tacirlər] alıb, diyar-diyar götürürlər. Səkkiz rəngdə neft olur. Lakin sarı neft qayət məqbuldur. Siyah neft şahlıqdır ki, İran diyarının, Özbəkistan, Hindistan, İraq, Kürdüstan, Gürcüstan, Dağıstan, Ali-Osman sərhədlərindəki qalalara bu qara nefti götürüb ətraflarına çərağan edirlər [qalaların ətrafını işıqlandırırlar]. Əsgər üzərlərinə hücum etdikdə üzərlərinə və ayaq altlarına neftli yorğan və köhnə əşya atıb atəşbazlıq edirlər [yandırırlar, alışdırırlar].

Neft, qala və şəhər mühimmatı [ehtiyacları] üçün lüzumludur. Hətta şah hüzurunda, dəri-dövlətlərində [dövlət qurumlarında] yanan məşəllər həp Bakı neftindəndir. Neftin gecəli-gündüzlü nigəhbanları [keşikçiləri] vardır. Çünki atəş dəyərsə, ilanihayə [axıra kimi] yanıb sönmək bilməz. Onun üçün neft mədənlərinin kənarında dağlar kimi qum təpələri amadə [hazır] durur. Neft mədəninə bir şərarə [qığılcım] isabət eyləsə, həman cümlə rəaya [rəiyyətlər] yetişib üzərinə torpaq ataraq söndürərlər. Başqa əlacı yoxdur."

Övliya Çələbinin "Səyahətnamə"sində bu qədər tərif olunan Bakı nefti haqqında ərəb coğrafiyaçıları da məlumat vermişlərdir. Məs'udinin "Mürucüz-zəhəb"ində bu xüsusda təfsilat verildiyi kimi, Yaqut Həməvinin "Mucəmül-büldan"ında izahat vardır. Yaqutun izahatına görə, Bakıda başlıca iki neft mənbəyi varmış ki, birindən sarı və ya ağ neft, digərindən qara yaxud yaşıl neft çıxarmış. Məsudi buradan başqa heç bir yanda ağ neft çıxmadığını da əlavə edir.[6] Hicri 9-cu əsrdə əl-Bakuvinin yazdığına görə, gündə çıxarılan qara neftin miqdarı 200 qatır yükü imiş. "Dərbəndnamə"dən iqtibasla Məhəmməd Cavad bəy deyir ki, Bakıdakı neft mənbələri ilə duz mədənləri, Dərbənd əhalisinə aid bir vəqf idi. Hicri 1003 tarixli bir kitabədən çıxarılan məlumata görə, bunlar seyidlərə təxsis edilmiş [ayrılmış] bir vəqf imiş.

Şah İsmayıl Səfəvi imzası ilə İdareyi-Ruhaniyyə [Ruhani İdarənin] quberniya məclisi dəftərxanasının övraqı [kağızları, arxivi] arasında məhfuz [qorunan] vəsaiqə [sənədlərə] nəzərən, neft quyularından bir neçəsi Təzəpir həyatində mədfun bulunan [dəfn edilmiş] şeyx həzrətlərinə vəqf edilmiş imiş.

*M. Ə. Rəsulzadə*

(1) Övliya Çələbi Bakıya gəldiyi zaman xanın toy məclisi varmış.
(2) Övliya Çələbi, Rəvan xanı ilə birlikdə Bakıya varid olmuşdur.
(3) Sultan, İran nizamınca bir mənsəbdir.
(4) Naxçıvan dəmirindəndir.
(5) Şəhərin əsgəri olmayan digər qismi ki, o da hasarlı imiş.
(6) "Axşam" qəzetəsi, Köprülüzadə Məhəmməd Fuad.

## İTTİFAQİ-MÜTƏƏLLİMİN [TƏLƏBƏLƏR İTTİFAQI] TƏRƏFİNDƏN MÖHTƏRƏM ƏHALİMİZƏ

Bu fəlakət illərində dünyada biz-dən çox zülm və cəfa çəkən, yəqin ki, olmamışdır. Bu bədbəxtçiliyin səbəbini hərə bir növ təfsir edir. Bəzisi rus istibdadıdır, deyir. Bəzisi mollalar bizi geri qoydu, söyləyir. Halbuki həqiqətdə bunların heç birisi ciddi səbəb olammaz. Bizi əzən, bizi puç və nabud [məhv] edən, nə istibdad, nə də sairədir. Bizim əvvəlinci və axırıncı düşmənimiz cəhalətdir.

Cəhalət! Biliksizlik! Bizi bütün bəlalara düçar edən ancaq və ancaq budur!

Cəhalətin əlacı var. Həm də çox qolaydır [asandır]. Ancaq biz ona dərman etmək istəməyiriz. Hər işimizdən ziyadə məəttəəssüf [təəssüf ki], onda süst, süst, süstüz!!

Cəhalətin tədavisi [müalicəsi] məktəbdə olur: məktəb, məktəb, məktəb!

Bu gün paytaxtımızda bir çox edadi məktəbləri vardır. Növzad olan [yeni qurulan] hökumətimiz bu yolda hər fədakarlığı gözə aldırmışdır. Yalnız övladi-vətən oxusun deyə birinci, ikinci gimnaziya və Mariinski ünas [qızlar] gimnaziyası da ana dilində əlifba - birinci ehtiyat [hazırlıq] - ikinci ehtiyat şöbələri açmışdır. Hər gün bu xüsusda qəzetələrlə elan edir. Xüsusi əxbar [xəbər] vərəqələri paylayır. Əhaliyə bildirir ki, uşaqlarını bu məktəblərə qeyd etdirsinlər. Müəllimləri ev-ev gəzdirib çocuq yığmağa əmr edir. Bütün bu səy və təlaşa rəğmən siniflərimiz yenə boş, yenə boşdur.

Əcəba bu qədər xabi-qəflət [qəflət yuxusu] kafi deyilmi? Nə vaxta qədər cərəyani-təbiiyyəyə [təbii axışa] qarşı duracağıq? Nə vaxta qədər başqa millətlər getdikləri yol[un] əksini ixtiyar edəcəyik [seçəcəyik]? Nə vaxta qədər hər şeyi, hər işi gec görəcəyik?

Atalar, qardaşlar! Çocuqlarınızı məktəbə veriniz. Bu gün ati [gələcək] üçün toxum əkiniz. Tainki vaxtında məhsul alasınız! Bu gündən artıq gecikməyəlim!

Bu gün fəxr etdiyimiz və mühafizəsi üçün qanımızı axıtdığımız hökumətimiz, əmin olunuz, hələ bizim deyil. O bizim olmaq üçün bizim əlimizdə olması lazımdır. Kimsə kəndi malının başqasında bulunmasına razı olammaz. Halbuki, bizim hökumətimiz hələ kəndi əlimizdə deyil! Və bu babda müqəssir yenə kəndimizik. Bacaran, idarə edən adamları, məəttəəssüf, vaxtında yetişdirəmmədik. Hələ şimdi yenə çalışmaq istəməyiriz. Əcəba bizim hökumətimizi iləlebəd [əbədi olaraq] əcnəbilərmi idarə edəcək!

Məktəblərimiz, həmd [şükür] olsun, millləşmişdir. Şəriət dərslərini ən məşhur və üləmamızdan [alimlərimizdən] axund Molla Ağa, Şeyx Əli, Mirzə Ziya kimi zəvat [şəxslər] və ülumü fünuni-sairəni [digər elm və fənləri] dəxi bakifayət [kifayət dərəcədə] fəzl [fəzilət], dirayət [bilik] sahibi müəllimlərimiz tədris etməkdədirlər. Minbəd [bundan sonra] artıq tərəddüdə məhəl [yer] qalmamışdır.

Tələsəlim, çalışalım, məktəblərimizi dolduralım.

Məktəblərə müraciət ediniz!

Siz orada gülər üzlü, nazik tövrlü [mehriban davranışlı], riayətkar [qayda-qanuna əməl edən] müəllim əfəndilərə təsadüf edəcəksiniz. Onlar sizə hər sühuləti [köməkliyi] göstərəcəklər. Kamali-fəxr və başaşətlə [sevinclə] övladlarınızı qəbul edəcəklər.

Çalışalım!

*Sədr: Teymur Aslanov*
*Katib: Səməndər Axundzadə*

## BAKI XƏBƏRLƏRİ

**Vükəla rəisinin [Baş nazirin] xəstəliyi**

Vükəla rəisi Fətəli xan Xoyski xəstələndiyi münasibətlə onun vəzifəsini müvəqqəti olaraq Daxiliyyə naziri Xəlil bəy Xasməhəmmədov ifa edəcəkdir.

**Diplomasi ziyafət**

29 kanuni-əvvəldə [dekabrda], Bakıdakı İran konsulu tərəfindən diplomasi bir ziyafət verilmişdi. Ziyafətə Azərbaycan nazirlərinin həpsi dəvət edilmişdi. Bu ziyafətdə Parisə Sülh Konfransına gedəcək İran heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] isbati-vücud [iştirak] edirdi. İran Xariciyyə vəziri bizim orada olan hökumət nümayəndələrimizlə müsahibə edərkən onları inandırmış ki, İran Dövləti-Aliyyəsi gənc Azərbaycan Cümhuriyyətinə ən səmimi bir əməl [arzu, niyyət] bəsləyir və Azərbaycanın istiqlaliyyəti bərpası üçün əlində olan həp vasitələrə müraciət edəcəkdir. "Yedinaya Rossiya"nın 17-ci nömrəsində, İran dövlətinin Azərbaycanı[n] İrana ilhaqını tələb edəcəkmiş, xəbərini bildikdə vəzir [nazir] Əliqulu xan həzrətləri konsul cənablarına əmr etmiş ki, bu xəbəri təkzib etsin.

**İran heyəti-mürəxxəsəsi**

Avropaya Sülh Konfransına getmək üzrə olaraq Bakıya İran heyəti-mürəxxəsəsi varid olmuşdur [gəlmişdir]. Heyət beş əzadan [üzvdən] mürəkkəbdir [təşkil olunmuşdur] ki, birisi nazirdir. Heyət, Sülh Konfransında atidə mündəric [aşağıda dərc edilmiş] 8 maddəni müdafiə edəcəkdir:

1) İranın istiqlaliyyətinin təmini;
2) İrana bitərəflik saxladığından ötrü düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən mükafat verilməsi;
3) Bütün əcnəbi imtiyazatının ləğv edilməsi;
4) Hərbdən İrana verilmiş zərərlərin verilməsi;
5) Özü öz ixtiyar və səlahdidi [razılığı] ilə müstəşarlar [məşvərətçilər, məsləhətçilər] dəvət etmək hüququna malik olması;
6) Kapitulasyonun ləğvi;
7) Bütün rus və Müttəfiqlər müqavilənamələrinin Türkmənçay müqavilənaməsi ilə bərabər ləğv edilməsi;
8) Hüdudun [sərhədin] düzəlməsi.

Axırıncı maddə, diplomasi müzakiratından ötrü geniş bir zəmindir. Zira ki, müəyyən surətdə bir söz söylənməyir və denildiyinə görə Azərbaycan Cümhuriyyətinin də İrana mülhəq olunması [birləşdirilməsi] tələb ediləcəkmiş. (!?)

* Bələdiyyə İdarəsi doktor Şərifova müraciətən tapşırmışdır ki, təcili surətdə 500-600 yataqlıq müsirr [yoluxucu xəstəliyə tutulan] xəstələrə məxsus bir xəstəxana güşadı [açılması] üçün layihə hazırlasın. Şəhərdə əmrazi-müsriyyənin [yoluxucu xəstəliklərin] gündən-günə artması önünü almalıdır.

* Bələdiyyə idarəsi Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, traktira vergisinin vaxtı keçdiyindən dolayı (25 kanuni-əvvəl [dekabr]), həman vaxtı dəyişmək barəsində binagüzarlıq edilsin [sərəncam verilsin]. Yeni vaxt isə Şurayi-Vükəlanın [Nazirlər Kabinetinin] qət etdiyi gündən 20 günədək təyin edilsin.

**Neft məhsulatı aparmağa dair**

Bakıdan ətrafa neft və neft istehsalatı [məhsulları] aparmaq və satmaq işlərinə baxmaq üçün Neftçilər İttifaqının ümumi iclası, xüsusi bir komisyon intixab etmişdir [seçmişdir]. Komisyonun sədarəti [sədrliyi] Neftçilər İttifaqının sədri Əsədullayevə, müavinliyi isə Şirkermana mühəvvəl edilmişdir. Bakıdan çıxarılacaq neft və neft istehsalatı üçün kontrol təyin etməkdən ötrü Neftçilər İttifaqı Ticarət və Sənaye Nəzarətinə müraciətən rica etmişdir ki, işbu maddələr barəsində lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün]:

1) Azərbaycan Dəmiryollarına müraciətən neft aparılmamağı tapşırılsın;
2) Aksiz İdarəsinə müraciətən yuxarıda məzkur istehsalatın [adı çəkilən məhsulların] aparılmağına izin verilməməsi tapşırılsın;
3) Cövhər yoluna müraciətən tapşırılsın ki, istehsalat qəbul edilməsin;
4) Port İdarəsinə tapşırılsın ki, neftlə yüklü vaporların Bakı limanından çıxmasına müsaidə verilməsin.

Hər bir halda, bunlardan Neftçilər İttifaqı cənbində [nəzdində] təşkil tapmış xüsusi komisyondan vəsiqə pişnihad [təqdim] edilməlidir.

Veriləcək vəsiqələr təb'ən [çap edilmiş] olub, İttifaq bürosu möhürü ilə möhürlənib, sədr və yaxud müavini imzası ilə təhkim [təsdiq] ediləcəkdir.

Hər vəsiqə ikişər [iki nüsxə] veriləcəkdir.

* Gürcü Ünas [Qadınlar] Cəmiyyəti para və əmtəə ilə Gürcü Səlibi-Əhmər [Qırmızı Xaç] Cəmiyyəti nəfinə [xeyrinə] ianə qəbul edir. Rica olunur ki, ianə edəcək zəvat, işbu ünvanlara müraciət etsinlər:

1) Xoştariya, Persidski küçə, nömrə 5, telefon nömrə: 37-97;
2) Torqaya, həman o yerdə;
3) Kutiaşvili, Ofiserskaya küçə, nömrə 6, telefon nömrə: 13-73;
4) Alişiyaya, Qoqol küçəsi, nömrə 9, telefon nömrə: 47-31;
5) Axribadze, Persidski küçə, nömrə 5, telefon nömrə: 29-41;
6) Teveşvili, Gürcü məktəbi, Birjevaya küçə, nömrə 36. Qəbul olunur: axşam saat 4-dən 7-ədək. Telefon nömrə: 25-83;
7) Gürcü Neft Ticarəti Cəmiyyəti kontoru, Starı poçtovaya, nömrə 72, telefon nömrə: 34-07

**Azərbaycan İctimaiyyuni-inqilabiyyun [Sosialist inqilabçılar] firqəsində**

Azərbaycan İctimaiyyuni-inqilabiyyun firqəsinin müvəqqəti komitəsi üzvlərə elan edir ki, firqənin bürosu Persidski küçədə, 93 nömrəli evdə, hər gün axşam saat 4-dən 7-ədək açıqdır. Məhəlli şöbələr[in] öz fəaliyyətləri barəsində büroya məlumat vermələri rica olunur.

**Qətnamə**

Biz Suraxanı mədənlərinin müsəlman fəhlələri 28 dekabr 1918 tarixində Səlimovun mədənində vaqe olan ictimamızda [yığıncağımızda] gənc Azərbaycan Cümhuriyyətinin demokratik əsasla təsis olunmuş Parlamanını səmimi-qəlblə təbrik etməklə bərabər, Məhəmməd Əmin Rəsulzadə cənablarının "Müsavat" firqəsi namından zəhmətkeşlərin hüquq və həyati-ictimaiyyələrinin demokratik əsası üzərinə təsis olunmağı xüsusundakı deklarasiyasını, zəhmətkeşlər mənbəyi olan gənc Azərbaycan Parlamanının qəbul etdiyi surətdə "Müsavat" deklarasiyalarını qövldən feilə [sözdən işə] gətiriləcəklərini ümid edir və bütün dünyanı sarımış istibdad zəncirini qabarlı əlləri ilə parçalayan ümumdünya demokratiyası namından Parlamanımıza mütəəssibən [təəssübkeşliklə] etiraz edən yalançı demokrat və mütəəssib [fanatik] millətpərəstlərə protesto ediriz.

*İmzalar*

**Türk Ədəmi-Mərkəziyyət**
**"Müsavat" firqəsi tərəfindən elan**

Tağıyevin fabrikasında, dekabr ayının 31-ində, səşənbə [çərşənbə axşamı] günü axşam saat 6-da, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın leksiyası olacaqdır.

Suraxanıda, yanvar ayının 1-ində, çaharşənbə [çərşənbə] günü saat 3-də, "Narodnı dom"da Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın əhvali-hazirəyə [hazırkı vəziyyətə] dair leksiyası olacaqdır.

Ramanada Nəşri-maarif məktəbində, yanvar ayının 1-də, çaharşənbə günü axşam saat 4-də, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın əhvali-hazirəyə dair leksiyası olacaqdır.

Balaxanıda Sovet Syezdin məktəbində, yanvar ayının 2-də, pəncşənbə [cümə axşamı] günü axşam saat 3-də, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın əhvali-hazirəyə dair leksiyası olacaqdır.

Binəqədidə "Narodnı dom"da, yanvar ayının 3-də, cümə günü axşam saat 3-də, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın əhvali-hazirə barəsində leksiyası olacaqdır.

Zamanın əhəmiyyətini nəzərə alaraq ümum fəhlə, kəndçi və öz millətini sevən hər bir millətdaşın bu leksiyalara gəlmələrini qəviyyən ümid ediriz [gələcəklərinə böyük ümid bəsləyirik].

*b-36*

**Bakı Şəhər İdarəsi**

Bununla ümum ev sahiblərinə, onları əvəz edən icarədarlara, ev müdirlərinə, bunlar olmaz isə ev komitələrinin sədrlərinə elan edir ki, 1917-ci il sentyabrın 29-unda Müvəqqəti Hökumət tərəfindən təsdiq edilib, "Müvəqqəti Hökumət Əxbarı"nın 1917-ci il 13-26 oktyabrda nəşr edilən 176 (222)-cı nömrəsində elan edilən Şəhər Mədaxil, Məxaric və Smetası Qanunu mövcibincə [qanununa görə] və Şəhər Dumasının bu il 3 fevral və 14 noyabrda çıxardığı qətnaməsinə binaən [qətnaməsi əsasında] Şəhər İdarəsi mənfəətinə Bakı şəhərində mənzil vergisi qoyulur. Yuxarıda sayılan əşxas (51-ci maddə) 1919-cu il yanvarın 7-sinə kimi Şəhər İdarəsi Maliyyə şöbəsinə hər ev üçün mənzillərin siyahılarını təqdim edib, bu şeyləri göstərməlidir:

1) Mənzil sahiblərinin familini, adını və ata adını. Həmçinin mənzil pulsuz və faizlə verilibsə, yenə sahiblərinin adlarını təqdim etməlidir;
2) Mənzilin illik mədaxilini;
3) Ev sahibi özü oturduğu və yaxud pulsuz və faizlə özgəyə verilmiş mənzilin qiymətini.

Bu məlumatı yazmaq üçün Şəhər İdarəsi tərəfindən vərəqələr hazırlanıb, ev sahiblərinə göndəriləcəkdir. Kim bu vərəqələri almazsa, bunları hər gün Şəhər İdarəsi Maliyyə şöbəsindən almaq olar.

Qeyd: Bu məlumatı təqdim etməyənlər vərəqələri almamağı bəhanə edərlərsə, qəbul edilməyəcəkdir. 1919-cu il 7 yanvara kimi Şəhər İdarəsinə evlər və mənzillər barəsində düz məlumat verməyənlər üç yüz manata kimi cərimə ediləcəklərdir.

*Şəhər qlavası: P. İlyuşkin.*
*İdarə üzvü: İ. Pleskaçevski.*
*b-32 3-3*

Səşənbə [çərşənbə axşamı] günü, dekabr ayının 31-də Parlaman mülkündə, axşam saat 5-də, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı şöbəsinin iclası olacaqdır. Ümum [bütün] yoldaşların gəlmələri rica olunur.

*b-35*

**İtibdir**

İsrafil Müseyibzadənin Lənkəran ali-ibtidai məktəbinin müəllimi tərəfindən verilmiş vəsiqənamə itmişdir. Tapıb gətirənə ənam veriləcəkdir.

*2623*

**Həkimlərin xüsusi**
**gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə. Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor**
**Doktor Samuil İzrailoviç**
**Kopeliоviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Arvad diş həkimi**
**A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Ədyan və Məzahib Nəzarətinin fəaliyyəti xüsusunda***

"Ədyan və Məzahib Nəzarəti" sözlərinin hərfi mənası "Dinlər və Məzhəblər Nazirliyi" deməkdir.

"prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

"Xarici məzhəbi-ruhani işləri…": burada, İslamiyyətdən başqa dinlərə mənsub olan əhalinin dini işləri nəzərdə tutulur.

***Qəzetələrdən:***
***Şura səfirinin axtarılması***

"…Bolşevik Hökumətinin Stokholmda səfiri olan Vorovski…": qəzetdə "Vorovski" yerinə səhvən "Voronov" yazılmışdır.

***Qəzetələrdən:***
***Ukrayna Cümhuriyyəti***

"Odessa qəzetələrində komendant Lutsenkonun…": qəzetdə "Lutsenko" yerinə "Luçenko" getmişdir.

"…getman boyunduruğundan…": burada söhbət İkinci Getmanlıqdan və bu rejimin başçısı Pavel Skoropadskidən gedir.

***Qəzetələrdən:***
***Yaponiyanın tələbatı***

"İngiltərə-Yaponiya İttifaqı": İngiltərə ilə Yaponiya arasında 1902-1921-ci illərdə mövcud olan və üç sazişlə təsdiqlənən ittifaq. Birinci saziş 1902-ci ildə 5 il müddətinə, ikinci saziş 1905-ci ildə 10 il müddətinə, üçüncü saziş isə 1911-ci ildə yenə 10 il müddətinə imzalanmışdı. Paris Sülh Konfransında Yaponiya bu ittifaq sayəsində bəzi planlarını həyata keçirməyə çalışmışdır. İngiltərə-Yaponiya İttifaqı 1921-ci ildə ləğv edildi.

***Qəzetələrdən:***
***Yassı konfransı və Müttəfiqlər***

"O. N.": "Odesskiye novosti" qəzeti nəzərdə tutulur.

***Mətbuat***

"general Krasnov": söhbət Don kazaklarının atamanı Pyotr Nikolayeviç Krasnovdan gedir.

***Dağıstanlılar Cümhuriyyətində***

"Dağıstanlılar Cümhuriyyətinin Hərbiyyə naziri": söhbət Nuhbəy Tarkovskidən gedir.

***Mülahizat***

"summün bükmün fəhüm la yə'qilun": Quranın "Bəqərə" surəsinin 171-ci ayəsindən bir parça. Mənası: "kardırlar, laldırlar, ona görə də düşünməzlər". Ayə bütövlükdə belədir: "Və məsəlülləzinə kəfəru kəməsəlilləzi yən'iqu bima la yəsmə'u illa duaən summün bükmün umyün fəhüm la yə'qilun". (Kafirlər, çığırtı-bağırtıdan başqa bir şey anlamayanlara bənzərlər. Onlar kar, lal və kordurlar. Ona görə də düşünməzlər.)

***Azərbaycan paytaxtı***

"təvaifi-müluk": Müsəlman tarixşünaslığında böyük bir dövlətin parçalanmasının ardından əmələ gələn kiçik dövlətlər haqqında işlədilən temrindir.

"1057 səneyi-hicriyyəsində": hicri təqvimlə 1057, miladi təqvimlə 1647-ci ildə.

"...Övliya Çələbi həzrətləri, Bakı qalasını bərvəchiati tərif edir.": Övliya Çələbinin "Səyahətnamə"sindən verilən sitatlarda, mətnin başa düşülməsini çətinləşdirən, bəzən də mümkünsüz edən korrektor səhvlərinə yer verilmişdir. Bu səhvlər, "Səyahətnamə"nin aşağıdakı çapı əsasında düzəldilmişdir: "Övliya Çələbi səyahətnaməsi", II cild, Dərsəadət [İstanbul], "İqdam" mətbəəsi, 1314 [1898]. Belə anlaşılır ki, Rəsulzadənin istifadə etdiyi mətn də "Səyahətnamə"nin məhz bu nəşri olmuşdur.

"Ərzurum valisi Məhəmməd paşa": XVII əsr Osmanlı dövlət xadimi Dəftərzadə Məhəmməd paşa, eyni zamanda Övliya Çələbinin qohumu idi.

"məvvac ipəkli firəng xaralarını": Xara, özündən naxışları olan ipək parça növüdür; "məvvac" [dalğalı] ipək isə üstünə işıq düşdükcə rəngdən-rəngə çalan ipək növüdür.

"mehmanlığa verdi" yerinə qəzetdə "mehmanlığa verildi" getmişdir.

"Xan isə [inci təsbehi] göstərmədik xan və sultan qoymadı": Qəzetdəki mətndə "inci təsbehi" sözləri düşmüşdür; "Səyahətnamə"nin İstanbul çapına (səh. 193) əsasən bərpa edildi.

"bir qat" yerinə qəzetdə "mülaqat" getmişdir.

"Zira": metrik sistemdən əvvəl işlədilən uzunluq ölçüsü arşının ərəb dilindəki qarşılığıdır. Arşının 45 sm ilə 1 m 35 sm arasında dəyişən müxtəlif növləri mövcud olmuşdur. Məkkə arşını təxminən 60 sm-ə bərabər idi.

"…bir də came varsa da, minarəsizdir.": Qəzetdə "minarəsizdir" yerinə səhvən "minarələrdir" getmişdir.

"Lakin dərya kənarındakı ribat, böyük karvansarası…": "Səyahətnamə"nin İstanbul çapında bu hissə belə getmişdir: "Lakin dərya kənarındakı ribati-əzimi…" Yəni "əzim" [böyük] burada "karvansara"nın yox, "ribat"ın [şəhərətrafı bağlarının] sifəti kimi işlənmişdir.

"şahsevən": şahsevənlər Səfəvi ordu nizamından qalma bir əsgər sinfi idi; əsasən hökmdara ən yaxın xüsusi qoşun növünü əmələ gətirirdilər.

"dizçökən": dizçökənlər Səfəvi ordu nizamından qalma bir əsgər sinfi idi; əsasən Osmanlı ordusundakı yeniçərilərə yaxın statusa malik idilər.

"şayka": Rusiyada əsasən çayda gəmilərlə quldurluq edən və "uşkuynik" adı verilən qarətçi dəstələrinin istifadə etdikləri gəmilərə deyilirdi.

Özdəmirzadə: söhbət Osmanlı sərkərdəsi Özdəmiroğlu Osman paşadan gedir.

Qubad paşa: XVI əsrdə Bakını tutan Osmanlı sərkərdəsi Özdəmiroğlu Osman paşa tərəfindən şəhərin hakimi təyin edilmişdi.

"Səndan": qəzetdə "Məsdan" kimi getmişdir.

"…Əşrəf xandan səmuriəcə-manələr, gürcülər, tavus dəvələr ehsan aldıq": Buradakı "səmur" konkret olaraq "samur xəzi" mənasına da, ümumiyyətlə "xəz" mənasına da gələ bilər. "Gürcülər" deyiləndə, gürcü qulları nəzərdə tutulur. "Tavus dəvələr" yaxud "tavusi dəvələr" ifadəsini Övliya Çələbi "Səyahətnamə"sində bir neçə dəfə işlətmişdir; bu ifadə "gözəl görünüşlü, bəzəkli dəvələr" kimi başa düşülməlidir.

"Hicri 9-cu əsrdə…": söhbət miladi təqvimlə XV əsrdən gedir.

"əl-Bakuvi": Seyid Yəhya Bakuvi nəzərdə tutulur.

"Hicri 1003 tarixli…": miladi təqvimlə 1594-1595-ci illərə uyğundur.

"…Təzəpir həyatində mədfun bulunan şeyx həzrətlərinə…": söhbət XIV əsrdə yaşamış alim və şeyx Əbu Seyid Abdulladan gedir.

***Bakı xəbərləri:***
***Diplomasi ziyafət***

"…İran Dövləti-Aliyyəsi…": İran dövlətinin rəsmi adı "Dövləti-Aliyyeyi-İran" idi; "Ali İran Dövləti" mənasına gəlir.

"Əliqulu xan": söhbət İranın Xarici İşlər naziri Əliqulu xan Ənsaridən gedir.

***Bakı xəbərləri:***
***İran heyəti-mürəxxəsəsi***

"Kapitulasyonlar": bir ölkədə xarici vətəndaşlara və şirkətlərə verilən imtiyazlar. Bu imtiyazlar, dövlətlər arasında imzalanan sazişlərlə təminat altına alınır. İranda kapitulasyonların tarixi I Təhmasib dövründən (XVI əsrdən) başlayır. Sonrakı dövrlərdə də davam edən imtiyazlardan daha çox İngiltərə, Fransa, Hollandiya, Rusiya təbəələri və şirkətləri istifadə etmişdir. Müxtəlif tarixlərdə bu imtiyazların bir qismi (bəzən hamısı) ləğv edilmişsə də, bir müddətdən sonra İran hökmdarları xaricilərə yeni imtiyazlar vermək məcburiyyətində qalmışdır. İran dövlətinin, xaricilərə verilən imtiyazları tamamilə ləğv etmək məqsədi ilə 1918-ci ildə başlatdığı mübarizə on il davam etmiş, nəhayət 1928-ci ildə xarici vətəndaşların və şirkətlərin İrandakı bütün imtiyazları ləğv edilmişdir.

***Bakı xəbərləri***

"Bələdiyyə İdarəsi doktor Şərifova…": Mustafa Şərifov nəzərdə tutulur.

"Neftçilər İttifaqının sədri Əsədullayev": Mirzə Əsədullayev nəzərdə tutulur.